Kaspi 2020.- 6 fevral.- S.12.

# "Özəl teatrlara dəstək"

Bildiyimiz kimi, Azərbaycan Respublikası Mədəniyyət Naziriyi "Özəl teatrlara dəstək" adlı əhəmiyyətli layihə həyata keçirir. Ölkədə teatr sənətinin inkişafı, azad rəqabət mühitinin formalaşdırılması məqsədi ilə dövlət teatrları ilə yanaşı, özəl teatrlara da dəstək olan qurum 2019-cu ilin oktyabr ayından etibarən özəl teatrlara öz tamaşalarını müxtəlif dövlət teatrlarının səhnələrində ifa etmək üçün şərait yaradır. Layihə çərçivəsində 9 özəl teatra (ƏSA teatrı, Bakı Uşaq Teatrı (Teatr Bakı Şəhər Mədəniyyət idarəsinin nəzdində olsa da, Mədəniyyət Nazirliyinin layihəsinə daxil edilib), Şahmat teatrı, Çıxış teatrı, M-teatr, Human teatrı, dOM teatrı, Rebus teatrı və TƏK yaradıcılıq platforması) hər ay bir dəfə tamaşa oynamaq üçün dövlət teatrlarının səhnəsində imkan yaradılıb. "Kaspi" qəzetinin "Teatr" əlavəsi olaraq, ölkədə teatr sənətinin inkişafına xidmət edən bu layihəni olduqca səmərəli hesab edir və layihə çərçivəsində nümayiş olunan tamaşaları diqqət mərkəzində saxlamağa çalışırıq.

Fevral ayının 10-da Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində "Rebus" teatrının təqdimatında dünya şöhrətli dramaturq Vilyam Şekspirin "Hamlet" əsəri əsasında hazırlanan "Hamlet-X" tamaşası nümayiş olunacaq. Quruluşçu rejissoru Ceyhun Dadaşov olan səhnə əsəri bu dəfə tamaşaçılara yeni üslubda təqdim edilir. Tamaşada rolları "Rebus" teatrının aktyorları Əli Əlizadə, Elnur İsmayılov, Əli Novruz, Natəvan Abbaslı və Arzu Hüseynova ifa edir. Eyni zamanda, rejissor-Ceyhun Dadaşov özü də tamaşada aktyor kimi rol alıb. Şeksprin "Hamlet" əsəri əsasında hazırlanmış tamaşa digər "Hamlet"lərdən fərqlənir. Tamaşada demək olar ki, sözlərdən imtina olunub. Yalnız tamaşanın müəyyən hissəsində Hamletin "Ölüm və ya olum" monoloqundan dörd, beş cümlə səslənəcək. Tamaşa əsasən plastika-hərəkət, biomexanika elementləri üzərində qurulub. Tamaşada psixoloji halın plastikasına üstünlük verilir.

Sözügedən tamaşa "Rebus" teatrının sayca üçüncü tamaşasıdır. Tamaşanın ümumi məğzini kabus, qarabasma nüansları təşkil edir. Bu da öz növbəsində "Hamlet"in yuxusu kimi yozula bilər.

Fevral ayının 11-də isə "Çıxış" teatrı Gənc Tamaşaçılar Teatrının səhnəsində "Tikanlı məftillər" tamaşasını oynayacaq. "Tikanlı münasibətlər" tragikomediyası məşhur Türkiyə yazıçısı və dramaturqu Müzəffər İzgünün "Sərhəd" pyesi əsasında hazırlanıb. Tamaşanın rejissoru İmam Həsənov, rəssamları Nuridə Mirqəvvam və Şahnaz Ağayeva, qrafik dizayneri Aysel Əmirovadır. "Tikanlı Münasibətlər" evlərindən, sevdiklərindən, öyrəşdikləri adi həyat tərzindən uzaq, bərk-bərk sarıldıqları silahların kölgəsində, ölkələrinin tikanlı sərhədini göz bəbəyi kimi qorumaları tapşırığını almış iki qonşu ölkənin əsgərləri arasında baş verən münasibətlərdən bəhs edən, qara yumorlu, sarkastik, müharibə əleyhinə olan bir tamaşadır. Səhnə əsərində aktyorlar Niyaz İlyasoğlu və Qorqud Cəfər çıxış edirlər.

Fevral ayının 18-də Azərbaycan Dövlət Kukla Teatrının səhnəsində M-Teatrın "Bir gecənin nağılı" tamaşası nümayiş olunacaq. Rövşən Ağayevin eyniadlı əsəri əsasında hazırlanmış tamaşa müasir dünyamızda qız-oğlan arasında baş verən münasibətlər müstəvisində qurulsa da, buradakı hadisələr öz yumoru, ciddi və qeyri-ciddiliyi ilə diqqəti cəlb edir. Tamaşanın quruluşçu rejissoru Vidadi Həsənov, səhnə tərtibatçısı Zəminə Orucova, musiqi tərtibatçısı isə İradə Muradovadır. Tamaşada Ziya Ağa və Günay Əhmədova çıxış edirlər. Qeyd olunan tamaşaların hər birinin biletləri i-ticket.az onlayn satış platformasında satılır. Bundan başqa Azərbaycanda yaradılmış digər özəl teatrlar da tamaşalarını dövlət teatrlarının səhnəsində uğurla nümayiş etdirir. Buna misal olaraq, ƏSA Teatrının Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində premyerası baş tutmuş "AND" dramatik komediyasını, Rus Dram Teatrında "Adamlar və siçanlar" tamaşasını, müstəqil Human teatrının Kukla Teatrında premyerası baş tutan "Mənim" tamaşasını, dOM teatrının "İclas", "Məhkəmə" kimi tamaşalarını göstərmək olar. Qeyd edək ki, Mədəniyyət Nazirliyinin bu layihəsi davam etməkdədir və qarşımızdakı aylarda da müstəqil teatrların tamaşaları dövlət teatrlarının səhnələrində nümayiş olunacaq.



